# Azərbaycanda xeyriyyə cəmiyyətlərinin yaranma prosesi

**Səyyarə Cəfərova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** seyyare.ceferova@bk.ru

**Rəyçilər:** p.ü.e.d., prof. H.H. Əhmədov,
p.ü.f.d. T.S. Paşayev

**Açar sözlər:** xeyriyyəçilik, ziyalılar, maarif, savadsızlıqla mübarizə
**Ключевые слова:** благотворительность, интеллектуалы, образования, борьба с неграмотностью
**Key words:** philanthropy, intellectuals, enlightenment, illiteracy fight

Xeyriyyəçilik insanın intellektual mədəniyyətini yüksəldir. Mənəvi dünyanın incisi sayılan xeyriyyəçilik ulularımızdan gəlib bizə çatmışdır. Bu fikri Dədə Qorqudda "Dirsə xan oğlu Buğacın boyunu bəyan edir" boyunda yazılan "Ac görsən doyurağıl, yalıncıq görsən donatğıl", "Borcluyu borcundan qurtarargül" kimi nəsihətamiz sözlər bir daha təsdiqləyir.

Böyük çex pedaqoqu Yan Amos Komenski yazırdı: "Xeyirxahlıqdan üz döndərən adama verilən təhsil donuz burnuna taxılmış üzüyə bənzəyir. Qiymətli daşlar qurğuşuna deyil, qızılla çərçivəyə alındığı kimi bilik də pozğunluqla deyil, xeyirxahlıqla birləşməlidir. Bu zaman həm öz parıltısını, həm də xeyirxahlığın parıltısını artırar".

Xeyriyyəçilik (philanthropy) – ya ayrı-ayrı şəxslər, ya da xeyriyyə təşkilatları tərəfindən təmənnasız olaraq, bir qayda üzrə müntəzəm surətdə ehtiyacı olanlara yardım etməkdir. Yaxın şəxslərə mərhəmət etmək ənənəsinin yarandığı andan etibarən mərhəmət bu günədək hər bir müasir hüquqi bazası olan dövlətin və müxtəlif təşkilatların formalarının ən ümdə tərkib hissələrindən biridir. Yəni, xeyriyyə təşkilatları xeyriyyəçilik fəaliyyətini həyata keçirən qeyri-kommersiya təşkilatlardır və onların əsas məqsədi imkansız ailələrin sosial müdafiəsini təmin etmək, onlara hərtərəfli maddi, tibbi, sosial kömək göstərmək üçündür. Bununla yanaşı hər bir ölkədə xeyriyyəçiliyin inkişafının özünəməxsus xüsusiyyətləri vardır.

Belə hallarda yardım göstərilməsi xeyriyyəçilik fəaliyyəti sayılmır:

1. Yardımı alan şəxs yardımı göstərən şəxsin qarşısında mülkiyyət və ya qeyri-mülkiyyət xarakterli öhdəlik (alınan vəsaitdən və ya əmlakdan məqsədli təyinatla istifadə olunmasına dair öhdəlikdən başqa) qəbul edirsə;
2. Yardımı alan və yardımı göstərən şəxslər qarşılıqlı surətdə asılı olan şəxslər sayılırlarsa;
3. Yardım hər hansı fiziki və ya hüquqi şəxsə seçki kampaniyasında iştirak etmək üçün göstərilirsə.

Tədqiqatçılar Azərbaycanda xeyriyyəçiliyin inkişafını bir neçə mərhələyə ayırırlar:

I mərhələ — İslama qədərki dövr. Mərhəmət və xeyriyyəçilik qohum və tayfa vaxtından meydana gəlmişdir. Birinci mərhələ cəmiyyətə qədərki mərhələ adlanır. Bu mərhələ islam dininə qədər fəaliyyət göstərdiyi dövrü əhatə etmişdir.

II mərhələ — VII-XII əsrlər. İkinci mərhələ islamın adı ilə bağlıdır. İkinci mərhələ VII əsrdən başlayaraq bu günə qədər davam edir. Bu dövrdə xeyriyyəçilik ayrı-ayrı şəxslərin və müqəddəs şəxslərin fəaliyyəti ilə bağlı idi və dövlət qanunlarına daxil edilməmişdir.

Xalqımızın uzun əsrlər boyu islamiyyətlə bağlılığı onun mənəviyyatında xeyirxahlıq hisslərinin dərin kök salmasına təsir etmişdir. Həzrəti Məhəmməd əleyhissalamın kəlamları

müsəlmanları mərhəmətə, yaxşılığa sövq edirdi və indi də etməkdədir. Həzrəti Peyğəmbər buyurdu: “Yetimin başına sığal çək, fəqiri yedizdir”, “Müsəlman qardaşının ehtiyacını ödəmək məqsədilə yol gedən bir kimsənin hər addımına ondan ayrıldığı yerə dönüncəyə qədər Allah-taala yetmiş savab yazar və yetmiş günahından keçər”, “Yerdəkilərə mərhəmət ediniz ki, göydəkilər də sizə rəhm etsin”, “Dul qadına və fəqirə yardım göstərən adam Allah yolunda cihad edən, gündüzləri oruc tutub gecələri isə ibadətdə keçirən kimsə ilə bir tuturlar”, “İnsanların ən yaxşısı camaatın xeyrinə çalışandır” və s. Hz.Məhəmməd əleyhissalam mərhəmət və yaxşılıq haqqında söz açarkən məzlumlara əl tutmağın vacibliyi göstərilir.

III mərhələ — XIX əsri əhatə edir. Bu mərhələdə İslam xeyirxahlıq ənənələri davam edir və yeni forma almağa başlamışdır. Xeyirxahlıq haqqında böyük maarifpərvər Həsən bəy Zərdabi də qiymətli fikirlər söyləmişdir. Məhz o, miskin şagirdlərdən əlavə, əlillər, karlar, korlar və şikəstlər üçün “cəmiyyəti-xeyriyyə” binası tikməyə çalışdı.

Bakı şəhərində həm müsəlmanların mənafeyini müdafiə edən maarifçi xeyriyyə cəmiyyətləri, həm də digər xalqların xeyriyyə cəmiyyətləri, mədəni mərkəzləri fəaliyyət göstərirdi.

“Bakı rus xeyriyyə cəmiyyəti”, “Serafim komitəsi”, “Bakı ermənilərinin ittifaqı”, “Bakı gürcü milli şurası” belə cəmiyyətlərdən idi. Bundan başqa Bakıda yəhudi, polyak, alman mədəni cəmiyyətləri də fəaliyyət göstərirdi. Bu cəmiyyətlərin fəaliyyətlərinin əsas istiqamətlərindən biri maarifçilik idi. Onlar daha çox mədəni-maarif işləri ilə məşğul olurdular.

IV mərhələ — XIX əsrin sonu-XX əsrin əvəllərində XIX əsrin sonu XX əsrin əvvəllərində Bakı neftinin sənaye miqyasında mənimsənilməsi Azərbaycanın sosial-iqtisadi və siyasi həyatında dərin təbəddulata səbəb oldu.

Nəhayət, bu dövrdə Bakıda müxtəlif təşkilatların, millətlərin nümayəndələrinin xeyriyyə təmayüllü cəmiyyət, təşkilat və s. yaratmaları, kütləvi-mədəni tədbirləri Azərbaycan milli burjuaziyasının və ziyalılarına təsirsiz qalmırdı. Neft bumu dövründə formalaşmış milli burjuaziya təbəqəsi öz qazancının bir hissəsini könüllü olaraq sosial xərclərə sərf edirdi.

1905-1907-ci illər inqilabı Azərbaycan xalqının milli şüurunun oyanmasına və onların nümayəndələrinin əməli fəaliyyətinə müsbət təsir etdi. Bunun nəticəsində Azərbaycan ziyalılarının xalqın maariflənməsi uğrunda apardıqları mübarizə daha da genişləndirildi, ibtidai və orta məktəblərin sayı artdı. Maarif məktəb məsələsi bütün partiyaların, təşkilatların, cəmiyyətlərin, ittifaqların, qurultayların müzakirə obyektinə çevrildi. Bu səbəbsiz deyildi. Çünki millətin tərəqqisi, inkişafı, dünya miqyasına çıxması ancaq onun məktəbi ilə bağlıdır.

XX əsrin əvvəllərində nəşr olunan bütün mətbuat orqanlarında o cümlədən, “Əkinçi”, “Ziya”, “Ziyayi Qafqaziyyə”, “Kəşkül”, “Tuti”, “Məzəli”, “Kəlniyyət”, “Şərqi-Rus”, “Qoç-Dəvət”, “Həyat”, “Fiyuzat”, “Təzə-həyat”, “Yeni Fyüzat”, “Arı”, “Babayi-Əmir”, “Şəlalə”, “Bəhlul”, “Tərəqqi”, “Zənbur”, “Rəhbər”, “Dəbistan”, “İttifaq!”, “Sədayi-haqq”, “Taza həyat”, “Hümmət”, “Bakinski raboçi”, “Dəvət-Qoç”, “Yoldaş”, “İrşad”, «Kaspi», “Təkamül”, “Səda”, “Məktəb”, “Açıq-söz”, “Molla Nəsrəddin” və b. qəzet və jurnallarda məktəb və milli maarif məsələsi ciddiliyi ilə qoyulur, həlli yolları üçün təkliflər verilir, hökumətin bu sahədəki siyasəti tənqid olunur, xeyriyyə cəmiyyətlərinin nailiyyətləri təqdir olunur. O zamana qədər ədəbiyyatımızda olmayan ədəbi janrlar: “hekayə”, “poema”, “oçerk”, “povest”, “roman” meydana gəldi; əsrlər uzunu ədəbi mühitdə hökm sürən “mərsiyə”, “qəsidə”, “həcv”, “mədh”in mövqeyi get-gedə sarsılmağa başladı. Rusiyadan və Avropadan gələn demokratik ədəbi, siyasi cərəyanlar xalqın mənəviyyatına nüfuz edir, yeni məfkurələr aşılayırdı, camaatın gözünü açır, şərq ətalətindən, qəflət yuxusundan oyadırdı. Yeni üslubda yazan şairlər, ədiblər,

jurnalist və tənqidçilər əsrlə səsləşməyə, ayaqlaşmağa çağırırdılar.

Bakı Quberniyasında müsəlmanlar arasında savadı yaymaq üçün birinci dəfə olaraq 1906-cı ildə Bakı şəhər Dumasına müraciət edərək, son zamanlar müsəlman ictimaiyyəti arasında maarifə xüsusi həvəs olduğunu yazır.

Bakı quberniyasında müsəlmanlar arasında savadı yaymaq üçün yaradılan ikinci cəmiyyət "Nəşri-maarif" cəmiyyəti idi. Cəmiyyət 1906-cı ildə təsis edilmişdi.

Cəmiyyətin nizamnaməsində deyilir ki, cəmiyyətin ümdə məqsədi Bakı şəhərində və kəndlərində maarifi yaymaqdır. Cəmiyyət həm də məktəblərə yardım göstərmək, yeni məktəb, kitabxana, qiraətxanalar açmaq və müəllim kadrları hazırlamağı qarşısına məqsəd qoymuşdur.

XIX əsrin əvvəllərində Azərbaycanda xalq maarifin vahid sistemi yox idi. Qızlar evlərdə ayrı-ayrı şəxslərdən təhsil alırdılar. Bakıda Məşədi Səkinə və Xırda xanım, Şamaxıda Gülbəyim xanım və digər qadınlar qızlara təmənnasız təhsil verirdilər.

XIX əsrin 70-ci illərində qız məktəbi açmaq sahəsində ilk təşəbbüs Hələb bəy Zərdabinin arvadı Hənifə xanıma məxsusdur.

Azərbaycanda hələ XX əsrin əvvəllərindən başlayaraq uşaq hüquqlarının qorunması ilə bağlı xeyriyyəçilər mühüm addımlar atmışlar.

Y.Y.Gindesin rəhbərliyi altında 1905-ci ildən "Bakı uşaq ölümü ilə mübarizə" cəmiyyəti fəaliyyətə başladı. Daha sonralar qadınların iştirakı ilə 1911-1918-ci illərdə "Uşaq və yeniyetmələrin dostları" cəmiyyəti fəaliyyətə başladı.

"Uşaq evi", "Uşaq dünyası" kimi bəzi cəmiyyətlər kimsəsiz uşaqlara kömək etməyə çalışdılar. Bakı xeyriyyə cəmiyyətlərin nəzdində "Uşaqlara hamilik" cəmiyyəti fəaliyyət göstərirdi.

**Məqalənin aktuallığı.** Azərbaycanda xeyriyyə cəmiyyətlərinin yaranma prosesinin öyrənilməsi baxımından məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə Azərbaycanda xeyriyyəçiliyin inkişafının mərhələləri tədqiq olunur, XIX əsrin sonu — XX əsrin əvvəllərində xalq maarifi sahəsində müxtəlif cəmiyyətlərin fəaliyyəti araşdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, şagirdlər, tələbə və magistrantlar, eləcə də tarixçilər istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan tarixi, VII cilddə, IV cild (XIX əsr). Bakı: Elm, 2000.
2. H. Əhmədov. Azərbaycanda xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti. Bakı: Mütərcim, 1997.
3. H. Əhmədov. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. I cild. Bakı: Lider, 2004.
5. M. Mərdanov. Azərbaycan təhsil tarixi. I cild. Bakı: Təhsil, 2011.

**С. Джафарова**

## Создание благотворительных обществ в Азербайджане


### Резюме

Пропаганда доброты, щедрости, обмена общением с людьми, поощрения добра, отказа от благодарности, помощи другим и отказа от ремесел сегодня также способна дисциплинировать.

Со временем стали развиваться милосердие и другие формы сострадания, и оно стало более важным, чем благотворительность.


**S. Gafarova**

## Creation of charitable societies in Azerbaijan


### Summary

The propaganda of kindness, generosity, generosity and generosity, sharing fellowship with people, promoting goodness, not giving thanks, helping others, and giving up handicrafts today also has the power to discipline.

Over the course of time, mercy and other forms of compassion began to develop, and more important than charity.


**Redaksiyaya daxil olub:** 23.04.2019